

# Əli VƏKİL

Amansız ölüm qələm yoldaşımız Əli Vəkili aramızdan apardı.

Əli Vəkil oğlu Səfiyev 1938-ci il iyunun 10-da Qərbi Azərbaycanın Basarkeçər rayonunun Yuxarı Şorca kəndində kolxozçu ailəsində anadan olmuşdur. Orada Şişqaya kənd orta məktəbini bitirib, İrəvanda X.Abovyan adına Ermənistan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinin Azərbaycan şöbəsində təhsil almıdır (1955-1960). Əmək fəaliyyətinə Ermənistan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan dilində verilişlər redaksiyasında diktor-redaktor kimi başlamışdır (1969-1972). Həmin dövrdə bədii yaradıcılığı davam etdirmişdir. Eyni zamanda tərcümə ilə də məşğul olmuşdur. Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini qiyabi bitirmişdir (1970). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Xəbərlər baş redaksiyasında redaktor (1972-1975), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində laborant, Yazıçılar Birliyinin orqanı "Qrakan Adrbecan" ("Ədəbi Azərbaycan") jurnalında şöbə müdiri (1977-1988), sonra məsul katib (1988-1990) olmuşdur. Əli Vəkil hələ doğulduğu yurdunda yaşayarkən dövri mətbuatda fəallıq göstərmiş, ilk şeirləri "Sovet Ermənistanı" qəzetində, "Ədəbi Ermənistan" almanaxında dərc olunmuşdur.

Əli Vəkilin 1963-cü ildə İrəvanda işıq üzü görmüş "Sona bulağı" kitabı şairin oxucularla ilk görüşü idi. Göyçə mahalında el arasında məşhur olan Sona bulağına həsr edilmiş poema-əfsanə maraqla qarşılanmışdır. Digər kitabları Bakıda işıq üzü görmüşdür. 1972-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan şairin "Zəfər çələngi", "İki günəş", "Doğma yollar", "Ata həsrəti", "Göyərçinlər", "Yeddi dağ", "Şəlalə", "Ana qayğısı" və s. kitabları çapdan çıxmışdır.

İstedadlı şair, səmimi, təvazökar insan Əli Vəkilin işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

***Azərbaycan Yazıçılar Birliyi***